# Atam mənim də dostum idi

Xalq yazıçısı İsa Muğannadan soruşurlar ki, niyə əsərlərində atanın obrazını yaradırsan. Böyük yazıçı "Çünki atamı hamıdan yaxşı tamıyıram..." - deyir...

Adam əzizini hamıdan yaxşı tanıyır...

Atam mənim də dostum idi...

***

Ömür ölüməcən yaşanılmış illər, aylar deyil.

Ömür el-oba üçün, xalq üçün, dövlət üçün yaşanılmış illərdi, aylardı. El-obasına başucalığı gətirən atamın hər söhbətini maraqla dinləyərdik. Onun öyüd-nəsihətləri dərs kitablarımızdan öyrəndiklərimizi tamamlayardı. Ö söhbətlərin əksəriyyəti xalqımızın dünənləriydi, ədəbiyyatımızıydı, incəsəntimiziydi, zəngin təbiətimizin gözəllikləriydi. Təmiz ad, halal çörək ifadələrini atamdan körpəliyimdən eşitmişəm. Atam ömür payını el-obasına, millətinə, xalqına bu kəlmələrə sədaqətlə yaşadı. Ata-ana öyüd-nəsihətləriylə. Bir də bu kəlmələrə sədaqətlə yaşadı. Bu kəlmələr əlimdən yapışıb məni cavanlığıma yetirdi, mənim də ömür yolum bu kəlmələrin işığında müəyyənləşdi.Oğullarım da belə yaşayırlar. Ancaq...Ancaq Xustub dağının əzəmətini könlünə köçürə bilmədi, Daş çeşmə, Marıl bulağı, Nav (əslində Nov) bulağı zamanında atamın (ondan əvvəl babamın, babaların), sonralar mənim (mənim yaşıdlarımın) nazını çəkdi, oğullarım onların ecazkarlığını düz-əməlli görə bilmədilər - araya işğal düşdü...

Atamın atası Həsənalı kişi doğma kəndi Canbardan qaçqın düşüb.

Atam Zəngilanın Canbar kəndində yaşayıb.

Atam qarışıq, çox qarışıq illər yaşayıb. 4 yaşında atasını, 12 yaşında anasını itirib. Yetimlik ağrılarının sıxıntılarını özündən kiçiklər çəkməsin deyə hər çətinliyə qatlaşıb. Bibisi uşaqları Fatma, Əli, Vəli, Aydın və Mehdi ilə birlikdə əmisi Qaraşın oğlu İsbəndiyarın himayəsində yaşayıblar.

Müharibə başlayanda minlərlə başqaları kimi onların da məşəqqətli günləri, ayları, illəri başlayıb. İbəndiyar da müharibəyə çağırılıb...

**"Bir qarın ac, bir qarın tox" ifadəsi adi söz düzümü deyil, Böyük Vətən müharibəsində belə aylar, illər yaşanılıb. Körpələr başaq yığa-yığa böyüyüb, kənddə kişiləri qadınlar, bir də yeniyetmələr əvəzləyib...**

### *1949-cu ildə*

atam hərbi xidmətə çağırılıb. Daxili Qoşunlarda xidmət edib. Eloğluları Xəlillə, Xansuvarla, Əvəzlə, Nazirlə eyni hərbi hissədə xidmət edib. Hərbi xidmət dostluğu üç il eloğluluğun davamı olub. Müxtəlif millətlərin cavanlarının xidmət etdiyi hərbi hissədə azərbaycanlıların mərdliyini, sədaqətini də yaşadıblar, yaşada-yaşada özləri də ehtiram yiyəsi olub, bir hərbi hissə miqyasında millətə də ehtiram gətiriblər. Atamın əsgərlik yoldaşlarının xatirələrini kəndimizin yeniyrtmələri də, çağırışçıları da böyük maraqla, həvəslə dinləyərdilər. Sonralar anladıq ki, bu söhbətlər bizə nəzərdə tutulmayan vətənpərvərlik dərsləriymiş...

***Heydər Həsənalı oğlu Məmmmədov 1952-cü ildə hərbi xidmətdən tərxis olunub. SSRİ Daxili İşlər Nazirliyi Azərbaycan SSR Daxili İşlər Nazirliyinin sərəncamına göndərib. Qətiyyəti nəzərə alınıb, dönməzliyi, sədaqəti, məsuliyyətliliyi nəzərə alınıb. Ona göstərilən etimad əsgər yoldaşlarının da ürəyini dağa döndərib. Ancaq hansı səbəblərdənsə onun daxili işlər orqanlarında işləməsi səkkiz ay ləngidilir. Niyəsini izah etmək istəməyiblər. O illərdə belə izahların əsası olmurdu və izaha maraq da göstərilmirdi. Az müddət Zəngilanda kitabxanada, sonra altı ay Qafanda meşə təsərrüfatı idarəsində işləyib. 1953-cü ilin avqust ayında Zəngilan rayon daxili işlər şöbəsində milis nəfəri vəzifəsinə qəbul edilib. 31 il xidmət edib atam. Bu müddətdə yüksək***



***intizamlılığı, dönməz əqidəliyi, düzgünlüyü, geniş dünyagörüşü ilə xidmət yoldaşlarının da, şöbənin rəhbərliyinin də rəğbətini qazanıb. Qüsursuz xidmətinə görə bir neçə medalla təltif edilib, fəxri fərmanlara, qiymətli hədiyyələrə layiq görülüb...***

"Bu dörd divar arasından başlayacaq cığırınız yola çıxacaq, elə yeriyin ki, büdrəməyəsiniz" - deyən atam Canbarın təbiətini çox sevirdi, onu bizə də sevdirirdi. Uşaqlığımızda atamla gəzib-dolaşdığımız Gülluyala, Marıla, Topallıya, Armudlara,Kotanyalına,, Hacilardərəsinə, Qızıldaşa, Tək palıda, Məhişin biçənəyinə özümüz gedərdik. Bu, el-obaya sevgiydi. El-obaya sevgimiz Azərbaycana sevginin başlanğıcıymış...

Dum-duru ömür yaşadı atam. Uşaqlığımızda eşitdiyimiz təmiz adın, halal çörəyin nə olduğunu atamın timsalında dərk etdik.

### *Tələbəydim*

**1974-cü ilin yayının son ayıydı. Tələbə inşaat dəstəsinin tərkibində Xaçmaz rayonunda işləmişdik. Rayona qayıtmışdım. Səhər tezdən səs eşidib həyətə çıxdım. Atamın tanımadığım bir kişiylə kəlmələşdiyini görüb geri qayıtdım, onların söhbətinə mane olsaydım atam az sonra yaşıma məhəl qoymadan məni "quru yuyub, yaş sərərdi" - ağır söz demədən danlayardı. Belə danlaqlardan həmişə uzaq olmağa çalışardıq. Geri qayıtdım.**

Az sonra öyrəndik ki, həmin kişi Rəzdərə kəndindənmiş. Sən demə, sahə müvəkkili məzuniyyətdə olduğuna görə onu atam əvəz edirmiş. Ona haqsızlıq edilibmiş. Atam bunun qarşısını alıb. O illərdə belə işlərə görə təşəkkürün öz üsulu olduğunu hamı bilirdi. Rəzdərəli kişi atama minnətdarlıq kimi bizə bir quzu, 300 rubl da pul gətiribmiş. Atam onun gətirdiklərini qəbul etməyib, "Qanunu qorumaq mənim vəzifə borcumdur, vəzifə borcumu yerinə yetirmişəm. Halallıq ayrı şeydi, qardaş. Mənim də özümə görə var-dövlətim var. Mənim var-dövlətim balalarımdı..." - deyib. Onda da bizə dedi ki, köməyə ehtiyacı olanlara kömək edin, yıxılanın qolundan yapışın. Unutmayın ki, insandan yalnız təmiz ad qalır...

Kənddə də, rayonda da hamı bilirdi ki, Heydər kişi üçün ömür deyilən illər təmiz adla, halal çörəklə yaşanılan illər deməkdi. Xəlil dayı deyərdi: Heydər yeniyetməliyindən halal yaşayıb. Kitabxanada işləyəndə də, Qafanda işləyəndə də, daxili işlər şöbəsində işləyəndə də təmiz adını qoruyub, halal çörək yeyib. Heydər mənim təkcə əsgərlik dostum deyil, həm də qardaşımdı.

Zəngilan rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi sədrinin müaviniydim. Zəngilanda yaradılan ərazi özünümüdafiə taborunun komandiri təyin olundum. İlk vaxtlar əhalinin verdiyi tüfənglərlə silahlandıq. Torpağı qorumaq üçün vuruşduq. Atam sağ olsaydı, o da vuruşardı. Mütləq vuruşardı. Vətəni sevdiyini sezdiyimiz, duyduğumuz, gördüyümüz atamız bizə illərlə Vətəni sevin deyərdi.

Harda işlədimsə, harda xidmət etdimsə, atamın ruhunun qayibanə səsini eşitdim: el-obamızın, xalqımızın adına başucalığı gətir. Belə yaşamasan anan südün, mən çörəyimi sənə halal etmərik, oğul. İllərimi belə yaşadım. Oğullarım da belə yaşayacaq, gələcək nəsillər də. Biz Azərbaycanlıyıq qüruruyla yaşamışıq, ərazi bütövlüyü bərpa edilmiş Azərbaycanda bu qürurla yaşayacaqlar!.

**Sağ olsaydı Zəngilanın işğal edilməsi digər zəngilanlılar kimi onu da varından yox eləyərdi. Hərdən Zəngilan uğrunda döyüşlərdə şəhid olanların da, atamın da ruhuyla kəlmələşirəm: sevdiyiniz Zəngilanı qoruya bilmədik. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq, Zəngilan da işğaldan azad ediləcək. Onda Zəngilanda şəhidlərin də, atamın da ruhuna gözaydınlığı verəcəm. Atamın ruhuna deyəcəm: Zəngilan işğaldan azad edildi, Vətəni sevməyi səndən öyrənmişdim,dostum...**

**Bayram Məmmədov**
**əməkdar müəllim,**
**ehtiyatda olan polkovnik-leytenant, AJB-nin üzvü**